

# QƏRİB OĞLAN

*Ziba SEVİNDİK*

Soyuq qış gecəsi, dekabr ayı,
Oğlumçün dəmləmək istədim çayı.
Gecə saat iki, oturmuşdum tək,
Saat əqrəbitək vururdu ürək.
Oğul gəlişini gözləyən zaman,
Arabir halım da olurdu yaman.
Ürəyim səksəkə içində idi,
Deyirdim, nə içdi, görən nə yedi?
Bu anda oğlumdan zəng gəldi mənə,
Soruşdu, ay ana, nə alım sənə?
"Evdə yemək üçün nəyin var?"-dedi,
"Soyuqdur, şəhərdə yağır qar"-dedi.
Söylədim, ay oğul, gecikmə, tez gəl,
Səhərdən işdəsən, bir az da dincəl.
Evdə də nə olsa, Allah verəndən,
Səninlə bir yerdə yeyəcəyəm mən.
Dünənki yeməyin suyundan qalıb,
Bütöv yemədiyin payından qalıb.
Dedi: -, Çörək alıb gəlirəm indi,"
O, bunu deyərkən, yenidən dindi:
-„Yanimda bir qərib oğlan var, ana,
Bəlkə o da gəlsin bizim ünvana?
Dostumdur, mehriban, istiqanlıdır,
Bizimlə işləyir, Pakistanlıdır."
Dedim, əziz balam, köhnədir xörək,
Qonağa mən yemək bişirəm gərək.
Evdə bişirməyə heç nəyimiz yox,
Bilirsən, heç yerdən köməyimiz yox.
Olsa da qonağa böyük sevgimiz,
Qonağın yanında pis olmayaq biz.
Bizim yeməyimiz, oğul, bax, budur,
İçində bir kartof, bir də ki, sudur.
Oğlum evə gəldi, dedi ki, ana,
Ürəkdən acıdım, qərib oğlana.
Yazıqdır o qərib, dil də bilməyir,
Hər gün işlədikcə, heç dincəlməyir.
Belində çantası, əlində qələm,
Qəlbində min qüssə, acı dərd-ələm,
Satır qələmləri, belə qazanır,
Hər gün yolu bir tərəfə uzanır."
Soruşdum, neçəyə qələmi satır,
Bu işə ürəkdən belə can atır?
Bunu soruşanda oğlum kövrəldi,
Onun kövrəlməyi bağrımı dəldi...
Bir manata qələm satan oğlanın,
İslanmış paltarla yatan oğlanın,
Həyatı sən demə, çox çətin imiş,
Yazıq gecə-gündüz kədər, qəm yemiş.
Bir yandan kirayə, həm yemək pulu,
Çörək yeyə bilmir, o, qarındolu.
Gəlib Pakistandan qazanc dalınca,
Ürəyi qəm çəkir pulu alınca .
Həm də bizm dildə danışa bilmir,
Könlü nə istəsə soruşa bilmir.
Üzüldüm oğlumun dediklərindən,
Bəlkə çox demədi bildiklərindən.
Oğlumun gözündə kədəri gördüm,
O məsum üzündə qəhəri gördüm.
Danışdı, gözləri yaşardı, doldu,
Mənimlə bir yerdə pərişan oldu.
„Allahdan imkanım çox olsun", dedi,
Nə dərd var, ürəkdən yox olsun", dedi.
-„ Kimsəsiz olana kömək edəydim,
Sevindirib, tez dadına yetəydim.
Qərib olanlara olub təsəlli,
Yardım eyləyəydim mən ikiəlli.
Dilsiz heyvana da çörək verəydim,
Bax, belə xeyirxah işlər görəydim.
Arzuma çataydım gözəl işlərlə,
Qəlbim sevinəydi xoş görüşlərlə."
Oğlum deyə-deyə mənə bunları,
Başladı ömrünün qəmli anları.
Kədərli gözündən yaş gilələndi,
Mənim də ürəyim qəmə bələndi.
Dedim ki, ay oğul, sən də yetimsən,
Ürəkdə saf arzum, xoş niyyətimsən.
İşin də çətindir, varlı deyilsən,
Halına yanıram, dərk elə, bil, sən.
Dedi ki :„Ay ana, sənsən tək varım,
Ətirli, solmayan güllü baharım.
Nə yaxşı, həyatda varımsan mənim,
İsmətim, ərkanım, arımsan mənim.
Sən varsan, deməli, hər şeyim vardır,
Məni də yaşadan xoş arzulardır."
Oğlumun hər kövrək sözü, söhbəti,
Saldı ürəyimə yenə möhnəti.
Düşündüm, qəriblər indi neyləyir?
Onlara kimlərdir, kömək eyləyir?
Anasız, atasız, bacı-qardaşsız,
Ürəyi həmdəmsiz, könlü sirdaşsız.
Cibində pulu yox, qarnı da ki ac,
Bir manat paraya olurlar möhtac.
Gecələr yatmağa gəzir bir daxma,
Ürəyə nuş olmur yediyi loxma.
Bir qələm satmaqla qarınmı doyar?
İşləri sahmana, o, necə qoyar?
Qışın ortasında, soyuq havada,
Qalıb intizarda, qəlbi cəfada.
Gecənin yarısı, kim qələm alar?
Yazıq kimsəsizin qeydinə qalar?
Bir qərib oğlanı düşündükcə mən,
Ağladım, yarandı gözlərimdə nəm.
Oğluma söylədim, oğul, sən Allah,
Getmə qürbət elə, çox pisdir, vallah.
Onun da anası pul gözlər indi,
Oğul gələr deyə, yol gözlər indi.
Oğlum pul qazanır, düşünür ana,
Nə bilsin balası, qəsd" edir cana.
Xəyalım bu anda göyə çəkildi,
Qəmli baxışlarım yola dikildi.
Bir anlıq tez qızım yadıma düşdü,
Bir az da ağladım, halım dəyişdi.
O da bir qəribdir, qürbət diyarda,
Bəzən də yol gedir boranda, qarda.
O da, Allah bizi saxlayır" deyir,
Həyatına belə davam eyləyir.
Hər kəsin ruzisin bol versin Allah,
Ona yaşamaqçün pul versin Allah.
Ziba Sevindik də, qələm əlində,
Hey yazıb-yaratsın doğma elində.

***19 .12.2023***

